**Zaman, Elçin**. 44 gündə dünyanın hərb tarixini zənginləşdirən Azərbaycan ordusu : Ali Baş Komandanın verdiyi mükafatlar xalqımıza qələbələr yaşadan hərbiçilərimizin halal haqqıdır / E. Zaman // İki sahil. - 2020. - 11 dekabr. - **№ 222**. - S. 22.

Ali Baş Komandanın verdiyi mükafatlar xalqımıza qələbələr yaşadan hərbçilərimizin halal haqqıdır

Müzəffər Azərbaycan Ordusunun 44 gündə Qarabağda həyata keçirdiyi misli-bərabəri olmayan döyüş əməliyyatları bütün dünyanı heyrətləndirdi. Məhz bu qətiyyətli döyüşlərin nəticəsi idi ki, qısa müddətdə 5 şəhər, 4 qəsəbə və 300- ə yaxın kənd işğaldan azad edildi. Ən başlıcası isə alınmaz qala olan və Azərbaycanın qeyrət simvolu kimi dəyərləndirilən Şuşa şəhəri noyabrın 8-də azad edildi. Hətta qondarma «dqr»in qondarma rəhbəri Araik Arutyunyan etiraf etməyə məcbur olmuşdu ki, Şuşa şəhərinə kim nəzarət etsə, Qarabağa tam nəzarət də onun olacaqdır.

Bəli, məhz ordumuzun bu rəşadətli döyüşləri hələ bir müddət əvvəl qeyd etdiyimiz kimi, Ermənistanı kapitulyasiyaya gətirib çıxarmalı idi. Məhz bu tarixi hadisə baş verdi. Belə ki, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə Bəyanat imzaladılar. Bu Bəyanat mahiyyət etibarilə Ermənistanın təslimçilik aktıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə, Paşinyan kapitilyasiya şərtlərinə razılıq verdi. Dövlətimizin başçısı dəfələrlə, o cümlədən BBC-yə son müsahibəsində də bəyan etmişdi ki, yalnız Ermənistan qoşunlarının çıxarılması barədə öz üzərinə öhdəlik götürəcəyi təqdirdə hərbi əməliyyatlar dayandırılacaq.

Artıq 30 illik həsrətdən, nisgildən sonra Qarabağın tutqun üzü açıldı, başındakı duman, çən dağıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz, qəhrəman əsgərlərimiz müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsdilər. Bütün elimizə, obamıza qələbə ərməğan edildi, yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən yarasına məlhəm çəkildi, yurda qayıdış ümidləri dirçəldi. Qalib Sərkərdəmiz işğaldan azad edilən Vətən torpaqlarına başı dik, üzüağ, qürurlu bir qəhrəman kimi qədəm qoydu...

İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq Qələbəsi nəinki ölkə tarixinin, bütövlükdə dünyanın hərbi əfsanəsinə çevrildi. Xüsusilə alınmaz qala olan və sərt relyefə malik olan Şuşanın Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi isə hələ də nəinki erməniləri, hətta dünyanın hərbi ekspertlərini belə heyrətləndirir.

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə 44 gün ərzində Ermənistanın məğlubiyyətə uğradılmasının əsas səbəbi isə güclü Azərbaycan Ordusunun yaradılması idi. Son 17 ildə Prezident İlham Əliyev nəinki güclü ordu yaratdı, həmçinin onun ən müasir silah təminatını da gerçəkləşdirdi.

Məhz bunun nəticəsi idi ki, hələ İkinci Qarabağ müharibəsinə kimi Azərbaycan Ordusu düyanın ən qabaqcıl 50 ordusu sırasına çıxa bilmişdi. Ötən on illər ərzində ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində nəzərdə tutulan uğurlara nail olundu. Əldə edilən uğurlar barədə ölkəmizin başçısı demişdir: «Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik... Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.»

Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyət və təminatın təşkili, döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların icrasının yoxlanılması məqsədilə keçirilən təlimlərə böyük sayda şəxsi heyət, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnikalar cəlb edildi. Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Ölkəmizin son illərdə dinamik iqtisadi inkişafı və nəticə etibarilə ordumuzun güclənməsi ölkə başçısının fəaliyyətinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Son illərdə dost və digər dövlətlərin hərbi təhsil sistemi ilə tanışlıq, təcrübə mübadiləsi məqsədilə Müdafiə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyətlərinin aparıcı dünya ölkələrinə səfərləri olub. Plana uyğun olaraq, hərbi təhsil müəssisələrinin professor və müəllim heyəti həmin dövlətlərin hərbi təhsil müəssisələrinin nümayəndələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparıb.

Bu gün qarşıda duran əsas vəzifələrdən biri Azərbaycan Ordusunun daha da modernləşməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir.

Son beş ildə, həmçinin yeni hərbi hissələr inşa edilib, şəxsi heyət üçün hər cür şərait yaradılıb. NATO standartlarına müvafiq hərbi hissələrdə xidmət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə də təsir göstərib.
Hərbi xidmətin nüfuzunun artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi də irimiqyaslı islahatlar çərçivəsində təqdirəlayiq işlərdən hesab olunur. Müdafiə Nazirliyi ölkənin əsas güc strukturlarından biri kimi bu sahədə bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlayıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırıb və onları müvafiq instansiyalara təqdim edib.
Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə belə asanlıqla qalib gəlmək mümkündür. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq reallaşdırılan bütün tədbirlər Azərbaycan Ordusunun şəxsi heyətində ruh yüksəkliyi yaradıb.
Hərbi məqsədlər üçün xərclərin artırılması hərbçilərin sosial vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Azərbaycan Ordusuna ictimai nəzarət üçün yüksək səviyyədə şəraitin yaradılması isə ordu rəhbərliyinin ordu-cəmiyyət əlaqələrinə xüsusi önəm verməsindən xəbər verir. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Bu baxımdan ölkəmizdə keçirilən «ADEX» Beynəlxalq Müdafiə sərgiləri də xüsusi əhəmiyyət daşıyıb. Bütün bunlar Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin məntiqi nəticəsi, Azərbaycanın iqtisadi tərəqqisinin göstəricisidir. Xüsusi qeyd etmək lazımdır ki, ölkəmizin başçısı ordumuzun ölkəmizdə istehsal olunan silah-sursatla təchizatını daim diqqətdə saxlayır. Ordumuzun NATO ilə uğurlu əməkdaşlığına da xüsusi diqqət yetirir. Ən başlıcası isə NATO-nun ən böyük və güclü ordusuna malik qardaş Türkiyə ilə hərbi əməkdaşlıq ordumuza yeni inkişaf perspektivləri verib. Bir sözlə, ötən illər ərzində Prezident, Ali Baş Komandan İlham Əliyevin orduda islahatların davam etdirilməsini, ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsini, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasını prioritet vəzifələr kimi müəyyənləşdirməsi hərbi qüdrətimizin əsasında dayanır.

Məhz Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük rəşadətli döyüşlərdə düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi, ərazi bütövlüyümüzü bərpa etdi. Tarixi ədalət bərpa olundu. İşğaldan, əsirlikdən azad edilən digər torpaqlarımız kimi, ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Laçın rayonu da 28 ildən sonra əsl sahiblərinə qaytarıldı. Laçının erməni vandallarından xilası Böyük Qələbənin davamı olaraq ermənilərin qondarma

“Dağlıq Qarabağ respublikası” iddiasına son qoydu. Bununla da mənfur düşmənlərimizin öz doğma yurdundan uzaq saldığı qarabağlıların yurd həsrəti bitdi. Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Laçında üçrəngli bayrağımızın dalğalanması ilə Azərbaycan tarixinin ən parlaq səhifələrini yazdı.

Prezident İlham Əliyev dekabrın 9-da imzaladığı sərəncamlarla Azərbaycan Ordusunun qəhrəman hərbçilərini orden və medallarla təltif etdi. Bu təltiflər generaldan tutmuş, sıravi əsgərədək bir xeyli hərbçilərimizi əhatə etdi. Təbii ki, bu mükafatlar Azərbaycan xalqına zəfər dolu günlər yaşadan Azərbaycan hərbçilərinin halal haqlarıdır.

Elçin Zaman, «İki sahil»